Burada iddianın predmeti iddiaçının və ya ərizəçinin tələbləri, onların öz tələblərinin əsası kimi istinad etdiyi fakt və hallar və onları təsdiq edən sübutlar, iddia bir neçə cavabdehə qarşı verildikdə isə onların hər birinə qarşı yönələn tələb göstərilməlidir.

Bunlarla yanaşı, ərizə tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsinə dair məlumat (sənəd) əlavə edilməlidir. Məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olun işlər ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr və kommersiya mübahisələri, üzrə işlərdir.

Bunlardan əlavə, ərizəyə iş üzrə müvafiq sənədlər, o cümlədən dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd əlavə edilməlidir. Qeyd edək ki, inzibati hüquq münasibətlərindən əmələ gələn işlər üzrə tərəflər, müharibə veteranları, şəhid ailələri,, qaçqınlar və məcburi köçkünlər, məhkəməyə müraciət üzrə dövlət rüsumundan azaddırlar.

Birinci instansiya məhkəmələri işə bərpa və aliment tutulmasına dair işlərə 2 ay, ipoteka müqaviləsindən irəli gələn mübahisələrə və iflas haqqında işlərə 3 ay və digər mübahisələrə dair işlərə 4 ay müddətində baxmalıdır. İnzibati mübahisələr üzrə işlərə ağlabatan müddətdə baxılır.

Ərizəçi birinci instansiya məhkəməsinin (rayon, şəhərməhkəmələri, inzibati məhkəmələr, kommersiya məhkəmələri) qətnaməsi ilə razılaşmadıqda məhkəmənin qərarı rəsmi qaydada təqdim edildikdən 1 ay müddətində (inzibati mübahisələrə dair işlər üzrə qərardan 30 gün müddətində) qərarı qəbul etmiş məhkəmə vasitəsi ilə apellyasiya məhkəməsinə şikayət verə bilər.

Ərizəçi apellyasiya məhkəməsinin qərarı ilə razılaşmadıqda 2 ay müddətində (inzibati mübahisələrə dair işlər üzrə 1 ay müddətində) qərarı qəbul etmiş apellyasiya məhkəməsi vasitəsi ilə kassasiya şikayəti verə bilər.

Apellyasiya şikayətinə 3 ay müddətində, kassasiya şikayətinə isə, 2 ay müddətində baxılır.

---

Buklet Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən həyata keçirilən “Azərbaycanda Həssas Qrupların Hüquqlarının Müdafiəsi” layihəsi çərçivəsində “Hüquq və İnkişaf” İctimai Birliyi tərəfindən hazırlanaraq çap edilib. Bukletdə istifadə edilən məzmun heç bir halda Avropa İttifaqı və BMT-nin İnsan Hüquqları üzrə.Ali Komissarlığının mövqeyini əks etdirmir.

---

**Buklet fərdi sahibkar**
**Həsənov Hüseyn (VÖEN: 1003284572)**
**tərəfindən 25000 nüsxədə çap edilib.**

Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

# POZULMUŞ HÜQUQLARI NECƏ QORUMALI?

(Əlilliyi olan şəxslər üçün vəsait)



***Əlilliyi olan şəxslərin hüquqları***

*- Sağlam həyat tərzinin təmin edilməsi*
*- Sosial, tibbi və mənzil təminatları*
*- Əmək hüququnun və məşğulluğun təmin edilməsi*
*- Məktəbəqədər və məktəbdənkənar təlim-tərbiyə, təhsil və peşə hazırlığı*
*- Sosial xidmətlər, reabilitasiya və abilitasiya*
*- Ədalət mühakiməsinə çıxışın təmin edilməsi*

Bakı 2022

# Hüquqların inzibati qaydada müdafiəsi

Əlilliyi olan şəxslər hüquqlarını və ya qanunla qorunan maraqlarını müdafiə etmək üçün inzibati aktdan və ya onun qəbul edilməsindən imtinadan, inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən şikayət verə bilərlər.

Burada inzibati orqan dedikdə, müvafiq icra hakimiyyəti orqanları, onların yerli və digər qurumları, bələdiyyələr, habelə inzibati akt qəbul etmək səlahiyyəti verilmiş fiziki və ya hüquqi şəxs başa düşülür. İnzibati akt isə, inzibati orqan tərəfindən ümumi hüquq sahəsinə aid olan müəyyən məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir.

İnzibati orqanın və onun vəzifəli şəxsinin hüququ pozan hərəkətindən, hərəkətsizliyindən və aktından həmin orqanın tabe olduğu yuxarı inzibati orqana şikayət verilə bilər.

Şikayət yazılı formada tərtib edilməli və şikayətdə şikayətin verildiyi inzibati orqanın adı və ünvanı, şikayəti verən şəxsin soyadı, adı, atasının adı, yaşayış yeri və ya olduğu yer barədə məlumatlar göstərilməlidir.



Şikayət inzibati aktın qüvvəyə mindiyi gündən 30 gün müddətində birbaşa və ya inzibati aktı qəbul etmiş inzibati orqan vasitəsilə şikayət instansiyasına (orqanın tabe olduğu yuxarı inzibati orqana) təqdim edilir.

İnzibati aktdan şikayət verilməsi ilə bağlı müddət üzrlü səbəbdən buraxıldıqda, maraqlı şəxsin ərizəsinə əsasən şikayət instansiyası tərəfindən həmin müddət bərpa edilir.

İnzibati orqan 3 gün müddətində həmin şikayəti şikayət instansiyasına göndərməyə borcludur.

Qanunda başqa müddət nəzərdə tutulmamışdırsa, şikayətə onun daxil olduğu gündən 1 ay müddətində baxılmalı və mahiyyəti üzrə qərar qəbul edilməlidir.

Şikayət instansiyası şikayətə baxılmasını heç bir halda şikayət olunan inzibati aktı qəbul etmiş inzibati orqana və ya onun vəzifəli şəxslərinə həvalə edə bilməz.

İnzibati orqanın və onun vəzifəli şəxsinin hüququ pozan hərəkətindən, hərəkətsizliyindən eyni vaxtda həm inzibati, həm də məhkəmə qaydasında şikayət (inzibati iddia) verildiyi hallarda, şikayətə məhkəmə qaydasında baxılır və şikayət instansiyasında həmin şikayət üzrə başlanılmış icraata xitam verilir.

Qanunla nəzərdə tutulmuş müddət ərzində yuxarı inzibati orqan tərəfindən şikayətlə bağlı qərar qəbul edilmədikdə və ya Ərizəçi qəbul edilmiş qərarla razılaşmadıqda məhkəməyə şikayət verilə bilər.

# Hüquqların məhkəmə müdafiəsi

Hüquqlar müvafiq icra hakimiyyəti orqanları, onların yerli və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmişfiziki və ya hüquqi şəxsin hüququ pozan hərəkəti (hərəkətsizliyi) və aktı nəticəsində pozulduqda, bu hüquqların məhkəmə müdafiəsi inzibati məhkəmələr tərəfindən həyata keçirilir.

Hüquqlar digər hüquqi və fiziki şəxslərin hüququ pozan hərəkəti (hərəkətsizliyi) və aktı nəticəsində pozulduqda isə onların müdafiəsi rayon, şəhər məhkəmələri, apellyasiya və kassasiya məhkəmələrinin mülki kollegiyaları tərəfindən həyata keçirilir. Eyni zamanda, hüquqların pozulması, işdə bədbəxt hadisə nəticəsində sağlamlığa vurulan zərər, təhsil hüquqları, ailə hüquqları, mənzil hüquqları və s. kimi hüquqların hüquqi müdafiəsi rayon, şəhər məhkəmələri, apellyasiya və kassasiya məhkəmələrinin mülki kollegiyaları tərəfindən həyata keçirilir.

Hüquqların məhkəmə icraatı qaydasında müdafiəsi üzrə müraciət yazılı iddia ərizəsi formasında verilir və iddiaçı və ya onun bunu imza etməyə səlahiyyəti olan nümayəndəsi tərəfindən imzalanır. Ərizədə ərizənin verildiyi məhkəmənin adı, iddiaçının, cavabdehin soyadı, adı, atasının adı, yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan, varsa, iş yerinin ünvanı, telefon nömrələri göstərilməlidir.